# "Ədəbiyyat üzrə Nobel mükafatçıları" kitabı dərc olunub




Ədəbiyyatşünas-alim, tərcüməçi İlham Abbasın "Ədəbiyyat üzrə Nobel mükafatçıları" kitabının I cildi işıq üzü görüb. "Ulduz" jurnalı və "Mücrü" nəşriyyatının ortaq layihəsi çərçivəsində nəşr olunmuş kitaba 1901-1939-cu illərdə Ədəbiyyat üzrə Nobel mükafatına layiq görülmüş yazıçıların həyat və yaradıcılığından bəhs edən oçerklər daxil edilib. Kitabın naşiri Müşfiq Xan, redaktoru Qulu Ağsəsdir. Qeyd edək ki, buna qədər "Ulduz" jurnalı və "Mücrü" nəşriyyatının ortaq layihəsi çərçivəsində Elçin Hüseynbəylinin "O gözəllər ki vardı..." hekayələr kitabı, Əflatun Amaşovun "Qanıq, Hasan, bir də Qaragöz" romanı, Əli Əmirlinin "Ustad dərsləri" toplusu, Vasif Əlihüseynin "Azmış kimi..." və Təranə Dəmirin "Səssizliyin melodiyası" şeirlər kitabları da da çap edilib. Yeni nəşri "Mücrü" nəşriyyatından əldə etmək olar.

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 15 aprel.- S. 29.